# Qarabağ Universitetində piano, skripka, klarnet, saksofon, tar, kamança, saz, qanun, balaban, nağara, qarmon alətləri; musiqişünaslıq, xanəndəlik, rəsm, rəngkarlıq, sənətşünaslıq və milli vokal istiqamətləri üzrə müəllim vakansiyası

**İşəgötürən:** "Qarabağ Universiteti" publik hüquqi şəxs

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınaraq regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universiteti yaradılıb.

Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli 73 nömrəli Qərarı ilə təsdiq olunmuş "Qarabağ Universitetinin Nizamnaməsi"nə əsasən, ali təhsilin bütün səviyyələri üzrə genişprofilli mütəxəssislərin və yüksəkixtisaslı elmi kadrların hazırlanması, eləcə də orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi və elmin müxtəlif sahələri ilə bağlı tədqiqatların aparılması universitetin fəaliyyət istiqamətlərinə aid edilib.

Universitet fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, eləcə də təhsilalanların yüksəksəviyyəli bilik və bacarıqlarla təmin olunması məqsədilə yüksəkixtisaslı peşəkar kadrlar üçün vakansiya elan edir.

**Vəzifə:** müəllim

**İşin təsviri:**
- fənn sillabuslarının hazırlanması;
- rəqəmsal bacarıqların tətbiqi;
- elmi tədqiqatların aparılması və nəticələrinin elmi jurnallarda dərc edilməsi;
- bakalavriat səviyyəsində dərs yükünə uyğun fənlərin tədrisi;
- tədris prosesi ilə bağlı tədris-metodiki vəsaitlərin hazırlanması;
- tədris prosesindən əlavə, ictimai və təhsil məsələləri ilə bağlı tədbirlərin təşkilində aktiv iştirak;
- müvafiq istiqamət üzrə kafedranın fəaliyyətinə dair təkliflərin hazırlanması;
- tələbələrin elmi-tədqiqat işlərinə rəhbərlik edilməsi.

**Tələblər:**
- magistr ali elmi-ixtisas dərəcəsinin olması;
- ali təhsil müəssisələrində müvafiq istiqamət üzrə minimum 3 il elmi-pedaqoji iş təcrübəsi;

- liderlik və idarəetmə bacarığı;
- tədqiqat bacarığı;
- tədris prosesində tələbə mərkəzli metod və texnologiyalardan istifadə bacarığı;
- təlim prosesində süni intellektin imkanlarından istifadə bacarığı;
- tələbəyönümlü və səriştəəsaslı tədris yanaşmalarından istifadə bacarığı;
- tələbələrin qiymətləndirilməsində müasir üsul və fərqli yanaşmalardan istifadə bacarığı;
- yüksək kommunikasiya bacarığı;
- Azərbaycan Respublikasının elm və təhsilə aid qanunvericilik aktları barədə məlumatlılıq;
- ali məktəb pedaqogikası və psixologiyasına, tələbələrlə davranış qaydaları və psixoloji işin təşkilinə dair biliklər.

**Tələb olunan sənədlər:**
1. tərcümeyi-hal;
2. ali təhsili təsdiq edən sənədlərin surəti;
3. dərc olunmuş elmi məqalələrin siyahısı (əgər varsa);
4. müşayiətedici məktub (motivasiya, proqramlarla bağlı baxış – maksimum 500 söz).

***Qeyd 1:*** *universitetdə daimi əsaslarla işləyən əməkdaşlar Xankəndi şəhərində tədris ilinin əvvəlindən başlayaraq işlədikləri müddətdə mənzillə təmin olunacaqlar.*

***Qeyd 2:*** *məktubun mövzu hissəsində müraciət olunan vakansiyanın adının qeyd edilməsi vacibdir. Bildiririk ki, yalnız müvafiq vakansiyanın tələblərinə uyğun namizədlərlə əlaqə saxlanılacaq.*

**Rəqabətədavamlı əməkhaqqı təklif olunur.**

**Müraciət üçün son tarix: 7 iyul 2024-cü il**

**Elektron poçt ünvanı: karabakh@edu.gov.az**